# Saxta İrfan Cərəyanlarında Cinsi Azadlıq və Səma

**Rauf İmranoğlu**[1]

## Abstrakt

Müasir dövrdə meydana çıxan saxta irfan cərəyanlarının ən diqqətçəkən xüsusiyyətlərindən biri onların cinsi məsələlərə yanaşmasıdır. Klassik irfan məktəbləri paklıq, iffət və nəfs tərbiyəsinə önəm verdiyi halda, yeni meydana çıxan bəzi mənəviyyatçı qruplar cinsi azadlığı mənəvi təkamülün bir vasitəsi kimi təqdim edirlər. Bu məqalədə Paolo Kuiliyo və Oşo kimi müasir irfançıların cinsi məsələlərə baxışı tənqidi şəkildə təhlil edilir, onların Freyd psixoanalizindən təsirləndiyi nümayiş etdirilir. Həmçinin sufilərin "səma" və rəqs ənənəsi, onun tarixi kökləri, Pifaqor və digər qədim məktəblərlə əlaqəsi, şəriət baxımından tənqidi araşdırılır. Məqalədə həmçinin bu cərəyanların Quran ayələrini təhrif edərək öz əməllərinə dəlil gətirmək cəhdləri ifşa olunur.

**Açar sözlər:** Kuiliyo, Oşo, cinsi azadlıq, Freyd, səma, rəqs, sufilik, irfan, təvil, mənəviyyat

---

[1] - İslam araşdırmaları fakültəsi, Əl-Mustafa Beynəlxalq Virtual Universitetində tərcüməçi və araşdırmaçı kimi fəaliyyəti olub, Bakı, Azərbaycan / Raufimranooglu@gmail.com

## Giriş

Müasir dövrdə meydana çıxan yeni mənəviyyat cərəyanlarının bir çoxu ənənəvi dini dəyərlərdən uzaqlaşaraq, insanın instinktlərinə, xüsusilə də cinsi meyllərinə xitab edən bir mənəviyyat modeli təqdim edirlər. Bu cərəyanlar klassik irfan məktəblərinin paklıq, iffət, nəfs tərbiyəsi kimi prinsiplərini kənara qoyaraq, cinsi ləzzəti mənəvi təkamülün bir vasitəsi kimi təqdim edirlər.

Klassik irfan məktəblərində – istər Məsihi irfanı və rahibliyi, istər Hind, Çin, Budda irfanları, istərsə də müsəlman sufiləri – həmişə öz ardıcıllarını nəinki cinsi meylləri azaltmağa çağırmış, hətta bəzən onun halal formalarından da çəkindirmişlər. Lakin təəssüflər olsun ki, yeni meydana gəlmiş irfanların bir hissəsində camaatı cəlb etmək üçün cinsi vasitələrdən müxtəlif formalarda istifadə olunur.

## 1. Kuiliyo Məktəbində İrfani "Xəlsə" və Cinsi Qüvvə

### 1.1. Paolo Kuiliyo Kimdir?

Paolo Kuiliyo müasir dövrdə məşhurlaşan Braziliya yazıçısıdır. Onun əsərləri dünyanın bir çox dillərinə tərcümə olunmuş və milyonlarla insan tərəfindən oxunmuşdur. Kuiliyo öz əsərlərində mistisizm, mənəviyyat və cinsi mövzuları bir araya gətirərək özünəməxsus bir dünyagörüşü təqdim edir.

### 1.2. Kuiliyoda Cinsi Qüvvə və İrfani Təkamül

Kuiliyo öz oxucularını və ardıcıllarını məharətlə cinsi və şəhvani məsələlərə yönəldir, cinsi əxlaqsızlığa mənəvi və irfani libas geyindirməyə çalışır. O, ali irfani və mənəvi məqamlara çatmaqda cinsi qüvvənin rolu haqqında deyir: *"Qovuşmağın gerçəkləşməsi üçün bu qüvvə ilə tanış olmalısan... Onunla necə rəftar etməliyəm? Sadə bir düsturdur... Düstur budur ki, cinsi əlaqə zamanı beş hissiyyatından istifadə elə. Əgər cinsi ləzzətin kuliminasiya anında bütün bu beş hissiyyat birlikdə hərəkət etsə, 'qovuşma' üçün qəbul olunacaqsan."*

Kuiliyo olduqca məharətlə çalışır ki, irfani "xəlsə"ni cinsi ləzzətə bərabər tutsun: *"Cinsi ləzzətin zirvə nöqtəsində beş hissiyyat məhv olur və cadu aləminə daxil oluruq. Bu zaman artıq görə, eşidə, dada, toxuna, yaxud qoxulaya bilmirik. Bir neçə uzun saniyə hər şey məhv olur və onların yerini xəlsə alır. Bu elə bir xəlsədir ki, tamamilə ariflərin illərlə riyazətdən sonra çatdıqları xəlsəyə bənzəyir."*

### 1.3. "11 Dəqiqə" Romanında Cinsi Təcrübə

Kuiliyo ədəbi-mədəni metodlarla cinsi azadlığı mənəviyyat nurunu dərk etmək üçün bir yol kimi təqdim edir. "11 Dəqiqə" kitabında dastanın əsas şəxsiyyəti Mariya haqqında deyir: *"Mariya təslim olmuşdu və hiss edirdi ki, bundan daha çox müqavimət göstərməyin faydası yoxdur və dedi: mən nur gördüm."*

Burada Mariyanın cinsi təcrübəyə təslim olması onun nura qovuşmasına səbəb olur – bu, cinsi əlaqəni mənəvi təcrübəyə çevirməyin bariz nümunəsidir.

## 2. Oşo Məktəbində Cinsi Azğınlıq

### 2.1. Oşo və Onun Təlimi

Oşo (Bhagvan Shree Rajneesh) 20-ci əsrin ən kontroversial mənəvi müəllimlərindən biridir. Onun təlimləri Şərq mistisizmi ilə Qərb psixologiyasını birləşdirir. Oşonun ən diqqətçəkən və tənqid olunan mövzularından biri də cinsi məsələlərə yanaşmasıdır.

### 2.2. Cinsi Azğınlığın Müqəddəsləşdirilməsi

Oşo seksi müqəddəs və həyatın ən əhəmiyyətli qüvvəsi hesab edir, hamını seksi məzəmmət etməkdən çəkindirir. O inanır ki, bütün həyati dəyişmələr bu qüvvənin vasitəsilə baş verir. O, seksi ibadətə bir müqəddimə bilir – lakin hər bir seksi yox, məstliklə, sərxoşluqla olan seksi! Oşoya görə bu seks eşq yaradır, eşq də ibadət əmələ gətirir.

Oşo seksi yalnızca eyni cinsdən olmayanla məhdudlaşdırmır, əksinə, homoseksuallığı da müqəddəs bilir. O, dindarlıq və ruhanilik üçün ən gözəl məkanı "kabare"lər hesab edir, nəinki kilsə və məscidlər: *"Tantera deyir ki, bir qadın yaxud bir kişi ilə eşqbazlıqdan öncə dua elə. Çünki enerjilərlə mələkuti görüş qabaqdadır. Allah səni əhatə edəcək. Harada iki aşiq olsa, Allah oradadır. Harada iki aşiqin enerjiləri bir-birinə çatsa və qarışsa, həyat oradadır və ən gözəl, ən layiqli şəkildə diridir. Allah səni əhatə edir. Kilsələr boşdur, eşq kabinetləri isə Allahlarla doludur."*

Oşo inanır ki, bəşərin bütün problemləri və məsələləri seksdə xülasələnir. Hətta mənəviyyat və Allah axtaranlar da həqiqətdə cinsi məsələlər axtarırlar: *"Hər gün insanlarla qarşılaşıram. Onlar gəlib deyirlər ki, Allahı axtarırlar. Onları nə qədər daha çox araşdırıram, bir o qədər başa düşürəm ki, problemləri seksdir. Əgər onlara problemlərinin cinsi məsələlərə qayıtdığını desəm, dərdlərinə dəyər və içləri boşalar. Amma həqiqətən seks köklü məsələdir və nə qədər ki, bu məsələ həll olunmayıb, Allahı axtarmaq mümkün deyil."*

## 2.3. Meditasiya və Cinsi Azğınlıq

Oşo ardıcıllarının yığışdığı yerdə kişi və qadınlar meditasiya seksi ilə məşğul olarkən bir çoxları bir-birinin yanında sekslə məşğul olur və saatlarla bir-birinin yanında partnyorlarını dəyişərək vaxt keçirirdilər.

Oşo deyir: *"Kim sekslə məşğul olsa, bu zaman hər şeyi qəbul edər. Sekslə üzbəüz olsanız, beləcə hər şeylə üzbəüz olacaqsınız."*

Amma əgər bir şəxs seksdən uzaq dursa və ona üz verməsə, belə olan halda bir çox həqiqətləri də özündən uzaqlaşdıracaq. Oşoya görə, seksə yaxın durmayanların edə biləcəkləri ən gözəl iş intihardır. Çünki "yaşamaq, diri olmaq, həyat – cinsiyyətdir, cinsi həyatdır".

Oşo iddia edir ki, cinsi hissdən uzaq durmaq və onu azad buraxmaq nəhayətdə onun kənara qoyulması ilə və cinsi meyllərdən azad olmaqla

nəticələnəcək. O, Freyd kimi inanır ki, əgər öz cinsi instinktimizi azad buraxsaq, bizi zəruri ehtiyacdan artıq narahat etməyəcək.

*"Axı nə üçün onu kənara qoymaqda tələsirsən? Əgər tələssən, heç vaxt onun əlindən xilas ola bilməyəcəksən. Tələsməyin özü, onu tərk etməyə meylin özü onu tam dərk etməyinə icazə verməyəcək... Cinsi enerjinin öz-özlüyündə heç bir pis şey yoxdur. Cinsi meylə zidd olan zehindir ki, cinsi inhirafı bu həddə gətirib çıxarıb."*

O deyir ki, cinsi meyllərə müxalif olmaq və onun razı salınmasının qarşısının alınması daha çox tamaha, daha hərisliyə səbəb olacaq: *"Xahiş edirəm cinsi meyllərlə müxalifətçilik etmə, əks halda daha dərin cinsi meyllərə tərəf sövq olunacaqsan. Əgər ondan qurtulmaq istəyirsənsə, bil ki, heç vaxt onun əlindən rahat nəfəs ala bilməyəcəksən."*

## 2.4. Oşonun Ziddiyyətli Yanaşması

Oşo bəzi təbirlərində cinsi meylləri **alçaq meyllər** bilir. Eyni zamanda alçaq məsələlərlə mübarizə yolunu onlarla müxalif olmaqda yox, əksinə, bir tərəfdən onlara boyun əyməkdə, onlarda qərq olmaqda, digər tərəfdən də daha ali məsələlərin axtarışında görür: *"Əvvəlcə gərək qəbul olunan, yaxşı cins üzə çıxsın, bundan sonra xarab mallar öz-özünə aradan çıxsın. Qoy bu köklü prinsip sənin həyatın olsun: heç vaxt alçaq, yaxud 'ən pis' şey ilə müxalif olma, həmişə gözəl, yaxud 'ən yaxşı' şeyin arxasınca düş. 'Ən yaxşı' sənin üçün aşkarlananda birdən-birə görəcəksən ki, 'ən pis'-ə olan meylin öz-özünə aradan gedəcək."*

Bu nəzəriyyənin əsas problemi ondadır ki, bəzi alçaq məsələlərdə qərq olmaq məhv olmaqla nəticələnir və bu zaman ali məsələlər haqqında düşünməyə fürsət qalmır.

Oşonun seksizmi o həddə çatır ki, seksi təbliğ edən informasiya vasitələrinin əleyhinə mübarizə aparır. Amma bunu əxlaqa, irfana zidd bildiyi üçün yox, əksinə, seksi təbliğ edən informasiya

mərkəzlərinin reallığın əvəzinə təxəyyülə, xəyala, virtual seksə yönəldikləri üçün edir: *"Həyatda həqiqi fərdlər və həqiqi sekslər olduğu halda axı nə üçün seks qəzetlərinin, jurnallarının arxası ilə gedilməlidir?!"*

Oşo inanır ki, seksi aradan aparmaq üçün camaat özünün cinsi əlaqələrində heç bir həddi qəbul etməməlidir. Bununla da, seks və seks jurnallarının təbliğatının heç bir önəm daşımaması uzun çəkməyəcək.

Oşo burada maraqlı bir misal çəkir: Nə üçün camaat ağac şəklinə baxdıqda ləzzət almır? Ona görə ki, bütün ağaclar lütdür. Amma bütün ağacları örtsələr, bu zaman gec-tez gizlin-gizlin lüt ağacların təbliğini aparan jurnallar nəşr olunacaq! İnsan heç vaxt lüt pişiyə, itə, şirə yaxud bəbirə baxmağa özündə şəhvət hissi keçirmir. Bu ona görədir ki, bu heyvanlar təbiətən lütdür.

## 2.5. Yeniyetmələrə Tövsiyələr

Oşo tövsiyə edir ki, cinsi meylləri öldürmək üçün fərdlərin həyatında yeniyetmələr və cavanların 14 yaşından 21 yaşına kimi azad şəkildə cinsi əlaqədə olmalarına icazə verilməlidir. Bu zəmində onların heç bir məhdudiyyəti olmamalıdır. Belə olan halda heç vaxt cinsi əlaqəyə bənd olmayacaqlar, ondan çətinlik çəkməyəcəklər.

Oşonun nəzərinə görə sağlam cəmiyyət o cəmiyyətdir ki, yeniyetmələrə və cavanlara bu yaşda öz cinsi istəklərinə mütləq azadlıq verir! Əgər belə olsa, cinsi həyəcanlar öz-özünə azalacaq. *"Günah hissi keçirmədən eşqbazlıq etmək, heç bir tələskənlik olmadan, zehindən etdiyin əməlin səhv olmasını keçirmədən olan eşqbazlıq bu dünyada etdiyin ən gözəl, ən sağlam və ən düzgün işdir."*

Oşo homoseksualizmi nəinki məzəmmət edir, əksinə, onu müqəddəsləşdirir və tərifləyir. O inanır ki, homoseksualizmdə yanlış heç bir şey yoxdur. Buna əlavə olaraq, deyir ki, ona qarşı çıxmaq onun daha da cazibədar olmasına səbəb olacaq. Çünki qadağan olunan hər bir şey daha çox cazibədarlığa malik olur.

## 2.6. Oşonun İdeal İnsanı

Oşo ideal insanı iki hissədən təşkil olunmuş bir şəxs kimi təqdim edir:

1. **Dünya adamı** – maddi və cismani xoş gün-güzəran keçirən
2. **İrfani şəxs** – mənəvi, zahid və dünyadan uzaq duran

*"Mənim bütün səyim bir şey üzərinə təmərküzləşib: bu iki keyfiyyətin hər birinə sahib olan belə bir müasir insanın yaranması bir zaman bütün insanların nümunəsi olacaq. Maddi və mənəvi keyfiyyətlər. Bunun hər ikisi bir yerdə olan gün yeni insana çevrilmiş olacaqsan və bu müasir insan bəşəriyyətin xilaskarı olacaq."*

Oşonun ideal insanı nəinki yalnız cismani istəkləri tanıyır, əksinə, onların hamısı ilə razılaşır və heç vaxt cismani və cinsi ləzzəti görməməzliyə vurmur, inkar etmir. Eyni zamanda da mənəvi və irfani seyri-süluk arxasınca gedir. Bu, Epikür ilə Buddanın, yaxud Aristippus ilə Məsihin birləşməsidir.

# 3. Tənqid və Araşdırma

## 3.1. Oşo Təliminin Daxili Ziddiyyətləri

Oşonun kitabları ilə tanış olanlar bunu başa düşürlər ki, onun sözləri **ziddiyyətli sözlərdir və iddialar toplusudur**. Bəzən elə bir şəkildə danışır ki, guya Budda danışır – tamamilə Hind dinləri və ayinlərindən təsirlənib. Bəzən də elə danışır ki, sanki Niçe, Marks və Engelsi izah edir, təsdiqləyir və tamamilə kommunist bir cəmiyyət istəyir. Bəzən Freydin bütün sözlərini bəlkə də onun özündən daha gözəl ifadə edir.

## 3.2. Freydin Təsiri

Oşonun Freyddən təsirləndiyi aşkardır. Ziqmund Freyd müasir dövrdə psixologiyada, psixoanalitikada, psixopatiyadakı nailiyyətlərindən sonra cinsi instinkt haqqında belə bir nəzəriyyə irəli sürdü: bəşərin bütün, yaxud ən azı əksər siyasi, ictimai,

əxlaqi, tərbiyəvi, iqtisadi və mədəni-maarif problemlərinin kökü onun uşaqlıq, yeniyetmə və cavanlıq dövrlərində cinsi meylini boğmasında, yaxud onun düzgün razı salınmamasındadır.

Freyd hətta uşaqların itdən qorxmasının kökünü onların atalarından (o, atanı oğulun cinsi istəyində əsas rəqib kimi tanıtdırır) qorxmasında görür. O iddia edirdi ki, bu qədim cinsi rəqibdən qorxu əvəz olunur və itdən qorxuya çevrilir. Freyd hətta dinin və dinə meylin yaranmasını uşaqlıqdan cinsi qüvvələrin boğulmasının nəticəsi hesab edirdi. O iddia edir ki, həddi-büluğ dövründə və yuxarı yaşlarda cinsi meylin qarşısının alınması özünü müxtəlif formalarda, o cümlədən dinə meyl və dindarlıq kimi göstərir! Əks halda, əgər cinsi instinkt boğulmasa, din və məzhəbdən də xəbər olmayacaq.

Oşonun fikirləri də eynilə bu ideologiyadan götürülüb. Bu nəzəriyyə mənəviyyata və əxlaqa ziddir. Bu nəzəriyyəyə əsasən fahişəlik, zina və digər rəzilliklər əxlaqi fəzilətlərin, irfani və mənəvi seyri-süluk metodlarının bir hissəsi olurlar! Yəni, nəinki onların qarşısında mane yaratmaq lazım deyil, hətta belə əməllər yayılmalı və təbliğ olunmalıdır. Və bunun müqabilində isə hicab, həya və həyat yoldaşına vəfalı olmaq kimi məsələlərlə mübarizə aparılmalıdır.

## 4. "Səma" və Rəqs

### 4.1. Səmanın Tərifi

"Səma" lüğətdə eşitmək mənasındadır. Amma sufilərin terminində qəlbin səfası, hüzuru, irfani ruh, ruhani hal yaratmaq üçün eşidilən xoş avaz, ürəyəyatan ahəng mənasındadır. Sufilər fəna və özünü unutmaq halları yaratmaq üçün yavaş-yavaş zahiri vasitələrə, o cümlədən "səma"ya üz tutdular.

Sufilərə görə, səmaya qulaq asmaqla yavaş-yavaş sözlər, ibarələr, səslər unudulur və insanın diqqəti maddi aləmdən yayınır, ruhani aləmə cəlb

olunur. Sufilər deyir ki, səma insan qəlbində vəcd halının yaranmasına səbəb olur. İnsan qəlbində belə bir halın yaranması da əzaların və ətrafların hərəkətinə səbəb olur. Əzaların hərəkəti ya xaotikdir – buna iztirab deyilir, ya da harmonikdir – buna da rəqs deyilir. Buna əsasən səmanın xarici əlaməti rəqs halı, qışqırmaq, paltarı cırmaqdır.

Səma xoş insan səsini eşitmək demək deyil. Əksinə, quşların avazını, qapının, küləyin səsini eşitməklə də səma yarana bilər.

### 4.2. Məşhur Sufilərdən Səma Nümunələri

Şiblinin hallarında qeyd olunur ki, bir neçə gün bir ağacın altında rəqs edərmiş və təkrar-təkrar "Hu, Hu" deyərmiş. Səbəbini soruşduqda cavabında belə demiş: *"Bir faxte (boz rəngdə bir quş) ağacda 'Qu, Qu' deyir, mən də onunla birlikdə 'Hu, Hu' deyirəm."* Əttar Nişapuri deyir: *"Deyirlər ki, Şibli dayanmadıqca faxte də dayanmadı."*

Mövlanə Cəlaləddin Rumi haqqında onun müasirlərindən Şəmsəddin Əflaki (649-755) deyir ki, o cümə axşamı Konya qadınlarının dəvəti ilə onların yanına gedər və onlar üçün səma məclisi keçirərmiş.

Mövlanənin səma məclisi haqqında başqa bir dastanda deyilir: Səma ilə məşhurlaşan bu adam qızılçılar məhləsindən keçəndə, qızıl döyənlərin tak-tak səsi onun qulağına dəyir, bununla da onda qəribə bir hal zahir olur və fırlanmağa başlayır.

### 4.3. "Səma" və "Ğina" Münasibəti

Sufilər şəriətçilərin tənəsinə daha az məruz qalmaq üçün zirəklik edərək "ğina" sözünün əvəzinə "səma" sözü işlətmişlər. Bəzi tədqiqatçılar demişlər ki, hər ikisi də eyni şeyin predmetidir.

## 5. Səma və Rəqsin Tarixi Kökləri

### 5.1. Səma Sufilərə Məxsus Deyil

Sufi səma və rəqsi müsəlman sufilərinə məxsus deyil. Əksinə, digər məktəb və ayinlərdə də olub və nəzərə gəlir ki, müsəlman sufiləri də onların təsiri ilə belə bir əmələ üz tutmuşlar. İslam

cəmiyyətinin müxalifəti ilə üzləşdiklərinə görə də Quran ayələrinin mənəvi təhrifi və əsassız hədislər uydurmaqla çalışıblar ki, onu dəlilli bir şey kimi qələmə versinlər.

### 5.2. Hindlilərdə Səma

Səma İslamdan çox-çox qabaq hindlilər arasında da yayılmışdı. Bir qrup hindli səma və rəqsə ibadət və mənəvi əməl kimi yanaşırdılar və güman edirdilər ki, xoş avazlar, rəqs, ziddiyyətli sözlər demək insanın nicatında və azadlığında təsirlidir, insanın ruhunun maddi və dünyəvi şeylərə bağlılıqdan azad olmasına səbəb olur.

### 5.3. Pifaqorçularda Səma və Musiqi

Mənəvi səma və rəqs pifaqorçular arasında da yayılmışdı. Məblixus Pifaqorun musiqi təbabətini belə təsvir edir: *"... O, bahar fəslində melodiya oxumağı bacaran müridlər arasında əyləşərdi və saz çalardı. Müridləri surudları onun sazı ilə bir yerdə oxuyurdu, bunun təsiri ilə də vəcdə gəlirdilər, harmonik, ahəngli, ritmli bir hal tapırdılar."*

Pifaqor Krotonda qurduğu məclisin vəhdətinin güclənməsi üçün musiqidən istifadə edirdi. Onun məclisində musiqi müridlərin təlimi və onların ruhi istedadlarının saflaşdırılması üçün istifadə olunurdu. Ruhun saflaşdırılmasında, nəfsin tərbiyəsində təsiredici və mühüm amil hesab etdiyi riyazi təfəkkürün yanında musiqinin roluna təkid edir və ona çox əsaslanırdı.

Pifaqor haqqında deyirlər ki, o yeganə fani varlıq olub ki, səmavi cisimlərin musiqisini də eşidirmiş. O, musiqini bəşərin səma ilə əlaqəsi üçün bir vasitə bilirdi və inanırdı ki, bütün aləm münəzzəm, sistematik və harmonik nisbətə və əlaqəyə malikdir.

Musiqi vasitəsilə ali fəlsəfi və dini mövzuları öz şagirdlərinə ötürə biləcəyini iddia edən birinci şəxs Pifaqor olub. O, həmçinin musiqinin bəzi ruhi və cismani xəstəliklərin müalicəsi olduğunu

deyirdi. Pifaqor ruhi həyəcanların, iztirabın, narahatçılığın müalicəsi, qəzəbin kontrolu, ruhi pərakəndəliyin aradan qaldırılması üçün melodiyalar da bəstələmişdi.

### 5.4. Qırmızıdərililərdə Səma

Yeni meydana gəlmiş bir sıra irfanlar da səma və rəqsə xüsusi diqqət yetiriblər. Səmanın "Sahiri", yaxud qırmızıdərililərin irfanında xüsusi yeri var. Qırmızıdərililərin irfanında "Mitut" adlanan bu əməl o məmləkətin ariflərinin nəzərində bu şəkildədir: qırmızıdərililərin arifi bir məclisdə bir yerə yığılır və birlikdə xüsusi bir avaz dinləyirlər.

### Quran Ayələrinin Yanlış Təvili

Müsəlman sufilərin səma əməlini izah etmək üçün bəzi ayə və rəvayətlərə əl atmaları yanlış bir işdir. Məsələn, *"Şübhəsiz ki, sən ölülərə eşitdirə bilməzsən"* ayəsini sufi səmasına və rəqsinə təvil etmək mənasız və əsassız təvil olub, mətnin təfsiri və başa düşülməsində heç bir qayda-qanuna uyğun gəlmir.

Quran ayələrinin çoxlu batini mənaları olduğunu qəbul edirik, amma onların kəşf olunmasını da müəyyən qaydaya əsasən qəbul edirik. Fərdlər hər "yaş" və "quru"nu Qurana nisbət verə bilməzlər. Səmanı şəri əsaslandırmaq üçün bir sufinin, hətta həqiqi bir arifin dağınıq yuxularına əsaslanmağın heç bir şəri və əqli əsası yoxdur. Bu, bu əməli müdafiə edənlərin öz əməllərinə şəri sənəd tapmaqda acizliyindən xəbər verir.

Gözəl səs və ürəyəyatan gözəl səsləri eşitmək mənasında olan səma şəriətə görə heç vaxt haram deyil. Gözəl səs Allahın bəzi bəndələrinə əta etdiyi nemətlərdəndir. Əsas məsələ budur ki, onların çoxu bu nemətdən düzgün istifadə etmir.

Nəinki heç bir müsəlman gözəl səsə malik olmağı, yaxud ürəyəyatan nəğmələri dinləməyi haram bilmir, əksinə, heç bir

ağıllı insan belə bir hökmü qəbul etmir. Əsas məsələ oxumağın tərzi və fərdlərin oxuduğu nəğmənin məzmunundadır. Gözəl səs "ğina" və "mütriblik" (eyş-işrət) şəklində, həmçinin gözəl səs ilə oxunan nəğmənin məzmunu alçaq, pis, yanlış sözlərdən ibarət olmamalı və ümumiyyətlə şəriətə zidd olmamalıdır.

Bəzi sufilər "səma" sözünü sırf olaraq bir söz hesab ediblər və onun termin olaraq tərifinin lüğəvi mənası ilə heç bir əlaqəsi yoxdur. Onlar səmanın tərifində deyirlər: *"Səma, yəni Allah və bəndə arasında zülmani və nurani hicabların aradan qaldırılmasına səbəb olan yol və metod; insanın "özmərkəzlilik"dən, "başqamərkəzlilik"dən qurtulmasına və Allaha, "Allahmərkəzliliy"ə imana səbəb olan bir şey; yaxud da səmanı insanı zahirilik, zahirpərəstlik səadətinin caynaqlarından azad edən şey hesab etmişlər. Səma, yəni Allah və bəndə arasında fasilə yaradan vadilərdən tullanmaq, insanı məqsədə çatdıran şey, batili, cah-cəlalı, məqamı və zahiri elmləri tərk etmək."*

Aydındır ki, səma ilə müxalif olanların müxalifəti söz ilə deyil, bu ad altında icra olunan əməllər və hərəkətlərlədir. Əgər səmadan məqsəd belə bir məna olsa, təbiidir ki, heç kim onunla müxalif deyil. Eyni halda, əgər məqsəd bəzi sufilər tərəfindən həyata keçirilən şəriətə zidd həmin əməlin bu cür nəticə, fayda və bərəkətlərinin olmasıdırsa, bu qəbul olunmazdır. Çünki əgər bu əməllər günahdırsa, şəriətə ziddirsə, Bayəzid Bəstaminin və bir çox sufilərin sözü ilə desək, başqa günahlardan qurtulmaq üçün bir günahdırsa, belə olan halda heç vaxt məqsədə, Allaha yaxın olmağa səbəb ola bilməz. Axı Allah-Taalanın qanununa zidd olan bir əməl ilə Ona necə yaxınlaşmaq olar, özün ilə Allah arasındakı məsafəni necə azaltmaq olar?!

## Nəticə

Müasir dövrdə meydana çıxan saxta irfan cərəyanları ənənəvi dini və mənəvi dəyərlərdən uzaqlaşaraq, insanın cinsi instinktlərinə xitab edən bir mənəviyyat modeli təqdim edirlər. Paolo Kuiliyo və Oşo kimi

müəlliflər cinsi azadlığı mənəvi təkamülün bir vasitəsi kimi təqdim edərək, cinsi əxlaqsızlığa irfani libas geyindirməyə çalışırlar.

Bu təlimlərin kökündə Freydin psixoanalitik nəzəriyyəsi durur. Freyd bəşərin bütün problemlərini cinsi instinktin boğulmasında görür və həlli də cinsi azadlıqda axtarırdı. Lakin bu nəzəriyyə bir sıra cəhətdən tənqidə məruz qalır:

1. **Dəlilsiz iddiadır** – bəşərin bütün problemlərinin cinsi məhdudiyyətdən qaynaqlandığı sübut olunmamışdır.
2. **Praktikada iflasa uğrayıb** – cinsi azadlığın yüksək olduğu Qərb cəmiyyətlərində psixoloji problemlər və cinsi azğınlıq azalmır, əksinə artır.
3. **İnsan fitrətinə ziddir** – insan sonsuzluq istəyinə malikdir və cinsi sahədə də qeyri-məhdud azadlıq onu doyurmaz, əksinə daha da həris edər.

Sufi ənənəsindəki "səma" və rəqs də tənqidə məruz qalan mövzulardandır. Səma İslamdan əvvəl də Hind, Yunan və digər mədəniyyətlərdə mövcud olmuş, sufilər də onlardan təsirlənmişlər. Səmanı müdafiə etmək üçün Quran ayələrini təhrif etmək, yuxulara əsaslanmaq və qondarma hədislər uydurmaq elmi və şəri baxımdan qəbuledilməzdir.

Gözəl səsin özü haram deyil, lakin onun "ğina" və "mütriblik" şəklində, şəriətə zidd məzmunla birlikdə ifa olunması qadağandır. Əgər səma ilə məqsəd Allah və bəndə arasındakı hicabların aradan qaldırılmasıdırsa, bu məqsədə şəriətə zidd əməllərlə çatmaq mümkün deyil. Günah olan bir əməl insanı Allaha yaxınlaşdırmaz, əksinə, Ondan uzaqlaşdırar.

Müsəlmanların vəzifəsi həqiqi İslam irfanını öyrənmək, saxta irfan cərəyanlarını tanımaq və gənc nəsli bu təhlükələrdən qorumaqdır. Yalnız Quran və Əhli-beyt (ə) yolunda olan həqiqi irfan insanı dünya və axirət səadətinə çatdıra bilər.

**Ədəbiyyat**

Qurani-Kərim – A. Mehdiyevin tərcüməsi, Bakı, 2009
Kuiliyo, Paolo, "11 Dəqiqə", (müxtəlif nəşrlər)
Kuiliyo, Paolo, "Pilqrim", (müxtəlif nəşrlər)
Oşo, "Seks: Müqəddəsdən Müqəddəsə"
Oşo, "Tantra: Ali Anlayış"
Oşo, "Meditasiya: Azadlığın Sənəti"
Freyd, Ziqmund, "Seksuallıq Nəzəriyyəsi"
Freyd, Ziqmund, "Mən və O"
Mütəhhəri, Mürtəza, "İnsan və İman", Tehran
Mütəhhəri, Mürtəza, "Cinsi Əxlaq", Tehran
Qəzzali, İmam Məhəmməd, "İhyaü Ulumiddin"
Əttar Nişapuri, "Təzkirətül-övliya"
Mövlanə Cəlaləddin Rumi, "Məsnəvi"
Şəmsəddin Əflaki, "Mənaqibül-arifin"
Pifaqor haqqında antik mənbələr
İmam Xomeyni, "Cihadül-əkbər"
Təbatəbayi, Məhəmmədhüseyn, "Əl-Mizan", Qum, 1389